## BİZİM ŞÜAR:
**"NÜMUNƏVİ HƏRBİ İNTİZAM VƏ YÜKSƏK DÖYÜŞ HAZIRLIĞI UĞRUNDA!"**

## UNUTMA!

### Müstəqil Azərbaycanın 1991-1993-cü illərdə işğal olunmuş bölgələri

| Sıra | Rayonların adı | Sahəsi | Kənd və digər yaşayış məntəqələrinin sayı | İşğal zamanı əhalinin sayı | İşğal olunduğu tarix | Şəhidlərin sayı | Milli Qəhrəmanların sayı |
|---|---|---|---|---|---|---|---|
| 1 | Xankəndi | 302 kv.km | 25 (25) | 18 min nəfər | 1991 | 102 nəfər | — |
| 2 | Xocavənd | 1458 kv.km | 78 (78) | 10 min nəfər | 18.02.1992 | 145 nəfər | — |
| 3 | Xocalı | 926 kv.km | 65 (65) | 12 min nəfər | 26.02.1992 | 3200 (613) | 10 nəfər |
| 4 | Şuşa | 289 kv.km | 30 (30) | 25 min nəfər | 08.05.1992 | 250 nəfər | 3 nəfər |
| 5 | Laçın | 1835 kv.km | 126 (126) | 60 min nəfər | 18.05.1992 | 262 nəfər | 5 nəfər |
| 6 | Kəlbəcər | 1936 kv.km | 124 (124) | 68 min nəfər | 02.04.1993 | 200 nəfər | 2 nəfər |
| 7 | Ağdərə | 1705 kv.km | 58 (58) | 49 min nəfər | 17.06.1993 | 145 nəfər | — |
| 8 | Ağdam | 1094 kv.km | 121 (80) | 150 min nəfər | 23.07.1993 | 5000 nəfər | 15 nəfər |
| 9 | Cəbrayıl | 1050 kv.km | 90 (89) | 59 min nəfər | 23.08.1993 | 381 nəfər | 6 nəfər |
| 10 | Füzuli | 1392 kv.km | 75 (51) | 100 min nəfər | 23.08.1993 | 1000 nəfər | 8 nəfər |
| 11 | Qubadlı | 802 kv.km | 95 (95) | 30 min nəfər | 31.08.1993 | 200 nəfər | 10 nəfər |
| 12 | Zəngilan | 707 kv.km | 83 (83) | 35 min nəfər | 30.10.1993 | 200 nəfər | 3 nəfər |
| | Cəmi: | 13490 kv.km | 970 | 616 min nəfər | — | 10085 nəfər | 62 nəfər |

Qeyd: *Cədvəldə mötərizədə göstərilmiş rəqəmlər ermənilər tərəfindən işğal olunmuş kəndlərin sayını əks etdirir.*

## HƏRBİ XƏBƏRLƏR - YENİLİKLƏR -

### AMERİKANIN YENİ MİNATÜR DÖYÜŞ SURSATI

Amerikanın "Raytheon" şirkəti miniatür idarəolunan döyüş sursatı hazırlayıb.



Şirkətin rəsmi internet saytında yerləşdirilmiş məlumata görə, "Pike" adlı döyüş sursatı lazer başlığa sahibdir. 40 mm çaplı bu sursatda dünyada ilk dəfə ən kiçik elektronika bazası tətbiq edilib.

Cəmi iki kiloqram çəkiyə malik bu sursat PUA-lardan, habelə qumbaraatanlardan atıla biləcək. Şirkət əldə edilmiş təcrübə və nəticədən bəhrələnərək, artıq 50 mm çaplı idarəolunan döyüş sursatını hazırlamağa başlayıb.

### UNİKAL PROTATİV ŞARJ VASİTƏSİ İSTEHSAL EDİLİB

Böyük Britaniyanın "Power Traveller" şirkəti yeni növ protativ şarj vasitəsinin təqdimatını həyata keçirib.



Xarici mediaya istinadən verilən məlumata görə, "Solarmonkey Adventurer" adlanan bu vasitə səhra şəraitində, yolculuq zamanı istifadə üçün nəzərdə tutulub. Mütəxəssislər şarj vasitəsinin ölçüsünü dəyişməsələr də tutumunu artıra biliblər.

"Solarmonkey Adventurer"nin tutumu 3500 mAh-ə qədər gücləndirilib. Bu da əvvəlkindən - 2012-ci il modelindən 1000 mAh çoxdur.

Şarj vasitəsi akkumulyator kimi 1-2 dəfə smartfon telefonu, 1-3 dəfə GPS naviqatoru və ya iPad planşeti 25 faizə qədər şarjla təmin edə bilir.

"Solarmonkey Adventurer"nin korpusu möhkəm plastikadan düzəldilib. Aparat mənfi 10-dan müsbət 90 dərəcəyə qədər olan hava şəraitində işlək vəziyyətdə olur.

Protativ şarj vasitəsinin uzunluğu 170 mm, eni 96 mm, qalınlığı isə 23 mm-dir. Məhsulun ümumi çəkisi 265 qramdır.

### HƏRBİ TƏYİNATLI YENİ BIÇAQLAR – *"camillus dagr", "camillus skol"*

Bir müddət əvvəl "Camillus Cutlery" şirkəti faydalı bıçaqların sifarişi üzrə yeni məhsulların istehsalına başlayıb.



Artıq şirkət hərbi təyinatlı hesab oluna biləcək "Camillus DAGR" və "Camillus SKOL" adlı bıçaqların istehsalına start verib.

Birinci model ABŞ xüsusi təyinatlılarının veteranı Gradi Povelin dizaynı əsasında hazırlanıb. İkinci məhsul isə ABŞ-ın "Dəniz pişikləri" adlanan desant birləşmələrində xidmət etmiş Jared Ogden tərəfindən dizayn edilib.

Yeni bıçaqlar demək olar ki, eyni materialdan istehsal olunub. Bıçaqların materialları yüksək keyfiyyətli 1095 markalı poladdandır.

"Camillus SKOL" iki kompanentli - "Micarta" və G10 struktura malikdir.

"Camillus DAGR"ın tam uzunluğu 267 mm, kəsici hissəsi isə 124 mm-dir.

"Camillus SKOL"un da tam uzunluğu 267 mm olsa da, kəsici hissəsi 120 mm-dən uzun deyil. Bıçaqların satış qiyməti də açıqlanıb - 270 dollar.

### HƏRBİ HELİKOPTERLƏR VƏ TƏYYARƏLƏR TƏKMİLLƏŞDİRİLƏCƏK

CAR-ın "Paramount Group" şirkətinin Azərbaycanın "Azairtech-service" şirkəti ilə birlikdə 2014-cü ildə Bakıda təsis etdiyi "Paramount Aerospace Azerbaijan" (PAA) şirkəti helikopter və təyyarələrin modernizasiyasını, onların təkmilləşdirilməsini həyata keçirəcək.

Bu barədə "Defense İQ" nəşrinə müsahibəsindən "Paramount Group" şirkətinin sahibi Ayvor İçikovitz bildirib. "Hər iki şirkətin birləşməsi bizim regionda lider olmamıza imkan verəcək. Mi-17, Mi-24 helikopterləri, Su-25 və MiG-29 kimi təyyarə platformalarında üstünlüklər yaradacağıq. Bizim tərəfdaşlığımız yerüstü sistemlər ilə başlayıb. Ölkənin sürətlə inkişaf etməsi və regional gücə çevrilməsi ilə daha da güclənib. Biz bunun əsasında ölkədə qabaqcıl aviakosmik imkanları yarada bilərik", - deyə şirkət rəhbəri vurğulayıb.

Qeyd edək ki, "Azairtech-service" şirkəti hazırda "Paramount Group"un tərkibinə daxil olan keçmiş ATE şirkəti ilə birlikdə Azərbaycan Hərbi Hava Qüvvələrinin Mi-24 döyüş və Mi-17 nəqliyyat helikopterlərinin təkmilləşdirilməsini həyata keçirib.

*ELXAN XƏZƏR – 60*

## CANIMIZ VƏTƏNİNDİR

*Torpaq Vətənə dönməz,*
*mərdlər yurdu olmasa.*
*Dərdi vətəndaşların*
*ağrı-dərdi olmasa.*
*Hər övladı bir əsgər,*
*xalqı ordu olmasa.*
*Döyüşçüsü tükənsə,*
*bitsə – ardı olmasa.*
*El yolunda alış, yan.*
*Yanmasın Azərbaycan!*
*Qoyma yağı talasın*
*sərvətini, varını.*
*Qoru göz bəbəyi tək*
*namusunu, arını.*
*Göstər yada nifrəti,*
*dosta etibarını.*
*Qoy görsün bütün bəşər*
*əyilməz vüqarını.*
*Sən qazan ki, şərəf-şan*
*Şanlansın Azərbaycan!*

*Yurda yiyə durmasan,*
*göz dikənlər çoxalar.*
*Tikə-tikə alınar,*
*parça-parça yox olar.*
*Elə sahiblik etsən*
*düşmən yanıb-yaxılar.*
*Hər silahlı qəhrəman*
*yad gözünə ox olar.*
*Haqq yolunda tök ki, qan*
*Yaşasın Azərbaycan!*

*Çəksin öz arxasınca*
*səni arzun, muradın.*
*Çatdırsın uğurlara*
*cəsarətin, inadın.*
*Hamıya bəyan olsun*
*biliyin, istedadın.*
*Adların arasında*
*daim seçilsin adın.*
*Sən qoy ki, yaxşı ad-san,*
*Tanınsın Azərbaycan!*

*Elə bilmə ki, torpaq*
*hər yoldan ötənindir.*
*Qaya kimi kök atıb*
*üstündə bitənindir.*
*Sübut et ki, bu diyar*
*yadın deyil, sənindir.*
*Canı yox, yurdu qoru –*
*Canımız Vətənindir!*
*Sayıq dayan ki, hər an*
*Qorunsun Azərbaycan!*

*Bir qurban hesabına*
*ömür sürür o biri.*
*«Öncə Vətəndir!» – deyib*
*düşmən üstünə yeri!*
*Bil ki, şəhid olanlar*
*ölmür – diridir, diri.*
*Hər kəsin ürəyində*
*vardır onların yeri.*
*Oğullar verir ki can,*
*Canlansın Azərbaycan!*

## MƏŞHUR HƏRBİ SƏRKƏRDƏLƏR

***Dünya tarixində yeritdiyi hərbi taktika və strategiyası ilə döyüşün gedişini öz xeyrinə dəyişən görkəmli sərkərdələr çox olub. Onların seçdiyi taktika məğlub olmaq ərəfəsində olan hərbi qüvvələri belə sonda savaşın qalibi edib. Bir çox məşhur sərkərdələr var ki, onların hərb sənətinə gətirdiyi taktikalardan bu gün hərbi əməliyyatlarda uğurla istifadə olunur.***



- Qədim dövrlərdə **Sparta hökmdarı Menelay** 300 nəfərlik qüvvə ilə tutduğu əlverişli mövqe sayəsində İran Əhəməni dövlətinin qat-qat çoxsaylı qüvvələrinin irəliləməsinin qarşısını xeyli müddət ləngidə bilmişdi.

- **Karfagen sərkərdəsi Hannibal** hərbi sənəti ilə uzun müddət qədim Roma Respublikasını qorxu içində saxlamış, Kann döyüşündə yeritdiyi mükəmməl taktika ilə zəfər çalmışdı. Hətta İkinci Cahan Müharibəsindəki Kursk döyüşündə rusların alman faşistlərinə qarşı həyata keçirdiyi taktika zamanı da Kann döyüşünün strategiyasından istifadə olunub.

- **Makedoniyalı İsgəndər** özündən 5-6 dəfə çox olan Əhəməni ordusunu mükəmməl hərbi istedadı sayəsində az müddət ərzində pərən-pərən salmağa nail oldu.

- Orta əsrlərdə **monqolların böyük hökmdarı Çingizxan** yüksək sərkərdəlik bacarığını nümayiş etdirərək, qısa müddətdə o vaxt bəlli olan dünyanın yarısına sahib çıxmışdı.

- Osmanlı İmperiyasının hərbi sərkərdələrindən olan **II Fateh Mehmet**, **Sultan Səlim, Süleyman Qanuni** və s. də möhtəşəm bacarıqları sayəsində dəfələrlə rəqiblərini məğlub durumda qoya biliblər. **Mustafa Kamal Atatürk** isə zəfərlərin son nöqtəsini qoydu. Avropa dövlətləri bu gün də Atatürkün sərkərdəlik məharətinə qibtə ilə yanaşırlar.

- Fransada **Napoleon Bonapart** top atəşi sənətinin ustası kimi şöhrət qazanmışdı. O, Fransanın cənubunda Tulon şəhərini tutan ingilis ordusunu özünün sərrast top atəşilə heyran qoydu.

- Rusiya tarixində də hərb sənətinin məşhur sərkərdələri olub. Təkcə **Suvorovun** adını çəkmək kifayətdir. Generalissimus rütbəsinə kimi yüksələn bu dahi şəxs mükəmməl taktikası ilə özündən qat-qat çox qüvvənin öhdəsindən asanlıqla gəlmək bacarığı ilə seçilirdi.

- Azərbaycanın görkəmli sərkərdələrindən olan **Girdman dövlətinin başçısı Cavanşir** də sərkərdəlik bacarığı ilə seçilirdi.

- 816-837-ci illər arasında məşhur sərkərdəmiz **Babək** ərəb işğalçılarının 6 ordusunu darmadağın edib. Bu qələbələr bir sərkərdə kimi məhz onun həyata keçirdiyi strategiya nəticəsində əldə olunmuşdu.

- Erkən orta əsrlərdə **Şəmsəddin Eldəniz**, onun oğlu **Məhəmməd Cahan Pəhləvan, Qara Yusif, Uzun Həsən** kimi hökmdar və sərkərdələrimiz də qələbə çaldıqları döyüşləri həyata keçirdikləri xüsusi taktikalar vasitəsilə əldə etmişdilər.

- **Səfəvilər dövlətinin banisi Şah İsmayıl Xətai** 14 il ərzində az qüvvə ilə 14 vilayəti özünə tabe etməyə nail olub.

- Rusiya-Polşa müharibəsində **İsmayıl bəy Qutqaşınlı** o zamanın ən nüfuzlu hərbçilərindən biri olub. Hətta deyilənə görə o, vaxtilə general rütbəsinə də layiq görülüb. İ.Qutqaşınlı bir hərbçi kimi at üstündə binanın 4-5-ci mərtəbələrinə pilləkənlərlə qalxarmış. Ona bu cəsarətinə görə "Qafqaz Sultaneviçi" adını veriblər. Həmin müharibədə **general Abbasqulu ağa Bakıxanovun** da çoxsaylı rəşadətləri olub.

- Azərbaycanın hərbçi sərkərdələrinin başında isə heç şübhəsiz, **Səməd bəy Mehmandarov və Əliağa Şıxlinski** dayanır. Bu dahi şəxslərin dövlətçilik



tariximizdə xüsusi yeri var. Onlar nəinki Azərbaycanın, hətta dünyanın hərb tarixində mühüm yer tutur. Ə.Şıxlinskinin **"Şıxlinski üçbucağı"** dəsrliyindən təkcə Rusiyada deyil, habelə Fransa, Norveç, Avstriya, İsveçrə və bir sıra digər ölkələrin artilleriya məktəblərində dərslik kimi istifadə olunub. Bu şəxs Fransanın yüksək ordeni sayılan "Legion" ordenilə təltif olunan yeganə azərbaycanlıdır. Rus-Yapon müharibəsində Port-Arturun müdafiəsində şəxsi şücaətilə seçilib. Əbəs yerə deyil ki, ona **"Artilleriyanın allahı"** adını veriblər.

- Böyük Vətən Müharibəsi illərində tank diviziyasına rəhbərlik edən **general-mayor Həzi Aslanov** Pribaltikanın azad olunması zamanı həyata keçirdiyi uğurlu manevrlərilə faşistləri çaşbaş salmaqla məşhurlaşmışdı.

- Bundan başqa, Azərbaycanın hərb tarixində görkəmli rol oynamış **Cəmşid Naxçıvanski, Fərrux ağa Qayıbov** və bu kimi məşhur sərkərdələr olub ki, onlar da dünya hərb taktikası və strategiyasına özünəməxsus töhfələr verib.

**Tarixi faktlar göstərir ki, çoxsaylı azərbaycanlı general və polkovniklər məxsus olduqları ordunun tərkibində böyük nailiyyətlər əldə etmiş, hər iki dünya müharibəsində son damla qanlarınadək vuruşmuşlar.**

*TƏSİSÇİ:*
Azərbaycan Respublikası DİN Daxili Qoşunların Baş İdarəsi.
Redaktor: leytenant X.Tağıyeva

REDAKSİYANIN ÜNVANI:
AZ 1130, Bakı şəhəri, Q. Musabəyov küç. 4, Daxili Qoşunların Baş İdarəsi.
Əlaqə telefonları: 560-22-63, 590-65-26

Qəzet ayda 2 dəfə nəşr olunur. "Əsgər" qəzetinin redaksiyasında yığılıb səhifələnmiş və DİN-in mətbəəsində hazır elektron variantdan çap olunmuşdur.

Şəhadətnamə 3565
Sayı 3000

*Daxili Qoşunların üzərinə çox böyük vəzifələr düşür və bunlar uğurla yerinə yetirilir.*
**İlham ƏLİYEV**

# ƏSGƏR

№ 16 (458)
31 avqust 2015-ci il

Qəzet 1992-ci il dekabrın 16-dan nəşr olunur.

Azərbaycan Respublikası DİN Daxili Qoşunlarının HƏRBİ VƏTƏNPƏRVƏRLİK qəzeti

## AZƏRBAYCANDA MÜXTƏLİF DİNLƏRƏ VƏ MƏNŞƏYƏ MALİK OLAN İNSANLARIN BİRGƏYAŞAYIŞI DÜNYADA YAXŞI NÜMUNƏ SAYILIR

***Prezident İlham ƏLİYEV:*** ***"Azərbaycan artıq uzun illərdir çalışır ki, bölgədə multikulturalizm dəyərləri üstünlük təşkil etsin"***

**Müasir dünyada qloballaşma proseslərinin nəticəsi kimi meydana çıxan sivilizasiyalararası toqquşma və ziddiyyətlər hər bir xalqın milli-mənəvi, dini dəyərlərinin qorunması zərurətini müasir dövrün aktual məsələlərindən birinə çevirmişdir. Söhbət milli-mənəvi, mədəni dəyərlərin "yad təsirlərdən qorunması" adı altında tolerantlıq prinsipinə qarşı yönəlmiş təhlükədən gedir.**

Tolerantlıq gücsüzün əzilməsinə dözümlü münasibəti təlqin etmir. Tolerantlıq hər hansı zorakılığa seyrçi münasibət anlamında da başa düşülməməlidir. Tolerantlıq, eyni zamanda, öz mədəniyyətindən imtina və ya imtina edilməyə təzyiq göstərilməsi demək deyildir. Müxtəlif fikir, inam, əqidə və dünyagörüşlərinə münasibətdə insanın yüksək mədəni səviyyəsi kimi özünü göstərən tolerantlıq həm də onu eqoizmdən uzaqlaşdıran, aqressivlikdən, radikallıqdan xilas edən düşüncə tərzidir. Dözümlülük göstərmək qarşıdakını olduğu kimi qəbul etmək, dünyanın əşrəfi sayılan insana yüksək dəyər vermək deməkdir. Tolerantlıq müxtəlif millətlərin milli-mənəvi dəyərlərinin, adət-ənənələrinin, həyat tərzlərinin, dünyagörüşlərinin, habelə, müxtəlif dinlərin, irqlərin dinc yanaşı yaşamasının ən mühüm şərtidir.

Ağır müharibə və münaqişələr əsri kimi dəyərləndirilən XX yüzilliyin gerçəklikləri bir daha təsdiqləmişdir ki, tolerantlığı inkişaf etdirmədən ayrı-ayrı xalqların vahid sosium kimi sivil birgəyaşayışı, habelə, insan hüquq və azadlıqlarının etibarlı şəkildə qorunması mümkün deyil. Tolerantlıq düşüncəsinin inkişafında Birləşmiş Millətlər Təşkilatının 1948-ci il 10 dekabr tarixli "İnsan hüquqlarına dair Ümumi Bəyannamə"si mühüm əhəmiyyətə malik olmuşdur. Bəyannamədə göstərilir ki, "İnsan ailəsinin bütün üzvlərinə məxsus ləyaqətin etirafı və onların bərabər, ayrılmaz hüquqları azadlıq, ədalət və ümumi dünyanın əsasını təşkil edir".

Tarixdə baş vermiş müharibə cinayətləri digər topluma aid insanların irqi, cinsi, dini, siyasi münasibətlər zəminində tamamilə məhv edilməsi məqsədinə yönəlir. Xocalı soyqırımını törədən ermənilər də bu baxımdan tolerantlıq düşüncəsindən uzaq olduqlarını nümayiş etdiriblər. Eyni zamanda, Ermənistanda azərbaycanlılara aid mədəni-tarixi abidələrin, məscidlərin, qəbiristanlıqların dağıdılması milli-dini dözümsüzlüyün ifrat forması kimi diqqəti çəkir. Bu gün Ermənistan MDB məkanında ən monoetnik respublikalardan biridir - burada hətta rusların da normal yaşayışına imkan verilmir.

Ölkəmizdə aparılan çoxmədəniyyətli dialoq müxtəlif dinlərə və mənşəyə malik olan insanlar arasında sülh şəraitində birgəyaşayışın yaxşı nümunəsi kimi istifadə oluna bilər. Azərbaycan tolerantlıq ölkəsidir. Azərbaycanda yaşayan bütün xalqların və dinlərin nümayəndələri arasında tərəfdaşlıq və qardaşlıq ruhu yaratmaq məqsədilə səylər gündən-günə artırılır. Ulu Öndərin əsasını qoyduğu azərbaycançılıq ideologiyası milli həyatın ahəngdarlığının, konfessiyaların dinc yanaşı yaşamasının, bütün etnosların qardaşcasına qarşılıqlı əlaqəsi və təsirinin çoxəsrlik ənənəsi, onların ümumi taleyi və gələcək müstəqil Azərbaycanın bütövlüyü, inkişafı və firavanlığı uğrunda birgə mübarizəsinin ümumi tarixi təcrübəsidir. Əhalisinin tərkibi etnik, dini və məzhəb baxımdan zəngin olan Azərbaycanda indiyədək dini və milli zəmində heç bir qarşıdurma baş verməmişdir.

Prezident İlham Əliyev son 12 ildə tarixi-mədəni irsin, milli-mənəvi dəyərlərin dirçəldilməsinə, xüsusən də dini ziyarətgahların əsaslı təmirinə və yenidənqurulmasına xüsusi diqqət ayırmışdır. Azərbaycan Prezidentinin İslam mədəniyyəti nümunələri olan tarixi-memarlıq abidələrinin, məscidlərin, ziyarətgahların, müqəddəs dini sitayiş və inanc yerlərinin təmiri, bərpası ilə bağlı xüsusi sərəncamlar imzalaması və bu işi şəxsi nəzarətinə götürməsi deyilənləri bir daha təsdiqləyir. Xalqın tarixi yaddaşının, dini və milli-mənəvi irsinin mühafizəsinə xidmət edən irimiqyaslı fəaliyyətin həyata keçirilməsi, milli ruhlu nəslin yetişdirilməsi, zəngin daxili aləmə malik azərbaycanlı obrazının bütün dünyada tanıdılması üçün zəruri olan qüvvə və potensialın səfərbər olunması cənab İlham Əliyevin dövlət başçısı kimi daim diqqət mərkəzində saxladığı məsələlərdir.

Bakıda ildə bir dəfə Beynəlxalq Humanitar Forumun keçirilməsi də mühüm əhəmiyyətli məsələ kimi qeyd olunmalıdır. Forumda dünya birliyinin siyasi, elm və mədəniyyət xadimləri, o cümlədən Nobel mükafatları laureatları, nüfuzlu beynəlxalq təşkilatların rəhbərləri iştirak edir. Bakı Beynəlxalq Humanitar Forumunun məqsədi dünya birliyi üçün maraq kəsb edən məsələlərlə bağlı dialoq və müzakirələrin təşkilidir.

Azərbaycanın dini-etnik sivilizasiyaların qovuşduğu məkan kimi tanınmasında ictimai statusla fəaliyyət göstərən Heydər Əliyev Fondu da yaxından iştirak edir. Bakıda Heydər Əliyev Fondunun prezidenti, Milli Məclisin deputatı Mehriban xanım Əliyevanın təşəbbüsü, UNESCO-nun və ISESCO-nun dəstəyi ilə keçirilən "Mədəniyyətlərarası dialoqda qadınların rolunun genişləndirilməsi" mövzusunda Beynəlxalq Bakı Forumu da sivilizasiyalararası dialoq, fərqli mədəniyyətlər arasında ortaq təmas nöqtələrinin tapılması, ümumbəşəri konsolidasiya prosesində konkret fəaliyyət istiqamətlərinin müəyyənləşdirilməsi baxımından vacib əhəmiyyət kəsb etmişdir.

Prezident İlham Əliyev ölkədə insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliliyini artırmaq məqsədilə 2011-ci il dekabrın 27-də imzaladığı sərəncamla "Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının müdafiəsinin səmərəliyini artırmaq sahəsində Milli Fəaliyyət Proqramı"nı təsdiq etmişdir. Hər bir demokratik cəmiyyətdə insan hüquqlarının qorunması və demokratikləşmə bu sahədə fəaliyyət göstərən təsisatların quruculuğuna, aidiyyəti problemlərin həllinə və zorakılığın qarşısının alınmasına yönəlmiş davamlı bir proses kimi dərk edilir. İnsan hüquqlarının müdafiəsi və demokratikləşmə spontan şəkildə həyata keçirilə və bu sahədə mövcud standartlar tətbiq olunmayana qədər lazımi səmərə verə bilməz. Milli Fəaliyyət Proqramının "İnsan hüquqları sahəsində tədris, elmi-analitik və maarifləndirmə tədbirləri"ndən bəhs edən 4-cü fəslinin 4.11-ci maddəsində insan hüquq və azadlıqlarına mühüm təhlükə yaradan təcavüz, terrorçuluq, korrupsiya, insan alveri kimi cinayətlərin qarşısının alınması, mədəniyyətlər və dinlərarası dialoqun uğurlarının təminatında tolerant münasibətin rolu xüsusi vurğulanır.

Prezident İlham Əliyev Nazirlər Kabinetinin cari ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında bildirib: "Azərbaycan artıq uzun illərdir çalışır ki, bölgədə multikulturalizm dəyərləri üstünlük təşkil etsin. Bölgədə sülh, əmin-amanlıq, mehriban qonşuluq meyilləri güclənsin və bildiyiniz kimi, Azərbaycan tərəfindən bu istiqamətdə həm ölkə daxilində, həm də beynəlxalq müstəvidə çox önəmli addımlar atılır".

Ümumilikdə müşahidələr göstərir ki, bu gün tolerantlıq prinsipinə ən böyük təhlükə Şərqdən deyil, məhz Qərbdən gəlir. Bir zamanlar belə bir təhlükəni qərəzli şəkildə islamla əlaqələndirməyə çalışan bəzi Avropa dövlətləri getdikcə özləri tolerantlıq prinsipinin ən böyük düşmənlərinə çevrilirlər. Fərqli fikir və düşüncəyə qarşı başlanmış "səlib yürüşü" ilk növbədə bu geosiyasi arealda sivilizasiyalararası qarşıdurma meyillərini gücləndirir. Bəzi hallarda terrora rəvac verən başlıca amillərdən biri də milli-etnik və dini tolerantlığın lazımi səviyyədə inkişaf etməməsidir. Əslində, bu problem təkcə dövlətlərin demokratik inkişaf səviyyəsi ilə deyil, həm də ayrı-ayrı millətlərin, xalqların milli yaşam tərzi, psixologiyası ilə bağlıdır. Lakin dini, siyasi, irqi və s. tolerantlığın zəifləməsi son nəticədə bəşəriyyətin tarixən can atdığı sivil dəyərləri sarsıdır. Sivilizasiyaların toqquşması isə son nəticədə sivil dünyanın təhlükəsizliyinə zərbəni artırır. Dünyanın bəzi aparıcı dövlətlərində insanları irqi, dini, milli qarşıdurmalara sürükləyən leqal və ya qeyri-leqal qurumlar fəaliyyət göstərir. Bu sırada neofaşistləri, skinxedləri və digər millətçi təşkilatları göstərmək olar. Həmin qurumların fəaliyyəti son nəticədə tolerantlıq düşüncəsinə böyük zərbə vurur, dini dəyərləri sarsıdır. Bunun "başağrısını" isə Avropa özü çəkməli olacaq.

**Azərbaycanda tolerantlıq irqi, milli, dini və bəşəri müstəviləri əhatə etmək baxımından yekcinsliyin təsdiqi deyil, müxtəlifliyin vəhdəti kimi bu günün həm lokal, həm də qlobal gerçəkliyinin tələblərinə cavab verir. Ən əsası, tolerantlıq bu gün Azərbaycan xalqı üçün demokratik dəyərə çevrilib.**

## 30 AVQUST - ZƏFƏR BAYRAMI

***93 il öncə Mustafa Kamal Atatürkün rəhbərliyi ilə qazanılan qələbə Türkiyə Cümhuriyyətinin təməlini qoydu***

Türkiyə Cümhuriyyətinin dövlətçilik tarixində mühüm yerlərdən birini tutan 30 avqust - Zəfər bayramının növbəti ildönümü qeyd edildi. Zəfər bayramına bu cür önəmin verilməsi isə heç də təsadüfi deyil. 30 avqust Türkiyə Cümhuriyyətinin quruluşunun başlanğıcı kimi qəbul edilir. Bu tarixdə Türkiyə Cümhuriyyətinin təməli qoyulub. Daha doğrusu, Türk xalqı və Türkiyə Silahlı Qüvvələri Mustafa Kamal Atatürkün rəhbərliyi ilə 1922-ci il avqustun 30-da tarixi zəfərini qazanıb. Bu böyük zəfər türk millətinin sarsılmazlığının və iradəsinin nümunəsidir. Bu qələbə heç də asanlıqla qazanılmayıb.

I Dünya Müharibəsindən məğlub çıxan Osmanlı dövlətini işğalçı ölkələr arasında paylaşdırmaq planlarının qarşısı məhz bu savaşlar və qəhrəmanlıqlar nəticəsində alınıb. Ölkənin bütünlüyünü qorumaq üçün başlayan çoxsahəli hərbi mücadilə bir neçə mərhələdən keçib. Bu mücadilə 1919-1922-ci illər arasında gerçəkləşərək, 11 oktyabr 1922-ci ildə imzalanan Mudanya müqaviləsiylə faktiki və 24 iyul 1923-cü ildə imzalanan Lozana anlaşması ilə rəsmən sona çatıb.




Zəfər bayramı 1922-ci ilin 26 avqustunda başlayıb 30 avqustda Dumlupınarda Mustafa Kamal Atatürkün baş komandanlığı altında qələbəylə nəticələnən "Başkomutanlıq Meydan Müharibəsi"ni (Böyük Taarruz) anmaq üçün qeyd edilən bayramdır. İşğalçı orduların ölkə sərhədlərindən çıxması bir qədər sonra baş versə də, 30 avqust simvolik olaraq ölkə torpaqlarının geri alındığı günü təmsil edir. Zəfər bayramı ilk dəfə 30 avqust 1923-cü ildə Afyonqarahisar, Ankara və İzmirdə qeyd olunub. Rəsmi olaraq isə 1936-cı ilin may ayında elan olunub.

Yeri gəlmişkən, bu sırada bir məqama da toxunmaq yerinə düşər. Bu "bir millət iki dövlət" olan Azərbaycanla Türkiyənin tarixlərindəki oxşarlıqla bağlıdır. Məsələ burasındadır ki, hər iki dövlətin müstəqilliyi ağır və qanlı savaşlardan keçib. Dahi Mustafa Kamal Atatürk İstiqlal Savaşına öndərlik etməklə Osmanlı imperiyasının ərazilərinin xarici işğalçılar tərəfindən ələ keçirilməsinin qarşısını aldı və Türkiyə Cümhuriyyətinin əsasını qoydu. Ulu Öndər Heydər Əliyev də 1993-cü ildə ikinci dəfə hakimiyyətə gələndən sonra xarici və daxili düşmənlərin parçalanma planlarının mərkəzində dayanan Azərbaycanı yox olmaq təhlükəsindən xilas etdi. Müasir, qüdrətli və daim inkişaf edən dövlətin əsasını qoydu.

***93 il öncə Zəfər bayramı - bu tarixi gün münasibətilə xalqa müraciət edən Mustafa Kamal Atatürkün "Böyük Türk milləti! Ordularımızın qalibiyyət və qüdrəti düşmənlərimizə dəhşət, dostlarımıza əmniyyət verəcək şəkildə özünü göstərdi. Böyük zəfər sənin əsərindir" sözləri ümumilikdə Türkiyə üçün yaşam şüarına çevrilib. Və bu gün həmin şüar sadiq qalan türk milləti dahi Atatürkün yadigarı və onun qurduğu dövlətin bir nömrəli keşikçisi olan Türk ordusunun daha da güclənməsi üçün əlindən gələni edir. Bir sözlə, güclü ordu, güclü Türkiyə deməkdir!***

## 15 SENTYABR - BİLİK GÜNÜ

***Artıq bu tarix Azərbaycan məktəblilərinin həmrəylik günü kimi qeyd olunur***

**Hər il böyük həvəslə qeyd olunan 15 sentyabr-Bilik Günü bu il də öz təntənəli açılış mərasimini gözləyir. Məhz bilik günündə bütün ümumtəhsil mərkəzlərində elmə, biliyə yiyələnən şagirdlər, tələbələr məktəb öncəsi hazırlıqlarını yekunlaşdıraraq yeni tədris ilinə qədəm qoyurlar.**

Məlumat üçün bildirək ki, bilik günü 2004-cü ilə qədər sentyabrın 1-də qeyd edilirdi. Lakin Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 21 avqust 2004-cü il tarixli fərmanı ilə Azərbaycanın bütün təhsil müəssisələrində dərslərin 15 sentyabrdan başlanması qərara alınmış, beləliklə, həmin gün Bilik Günü elan edilmişdir. Tarix boyu elmə, biliyə yiyələnmək, onu tədris etmək şərəfli iş hesab olunub. Müdriklərin "Mənə bir hərf öyrədənin köləsi olaram" ifadəsi zaman keçsə belə bu gün də öz aktuallığını qoruyub saxlayıb. Elmi daima yüksək qiymətləndirən tarixi şəxsiyyətlərimiz millətin maariflənməsi üçün əllərindən gələni əsirgəməmişlər. Azərbaycan elminin tarixində N.Tusi, M.F.Axundov, A.Bakıxanov, M.Kazımbəy, Y.Məmmədəliyev kimi yüzlərlə nəhəng alim



və filosoflar olmuşdur ki, onlar dünya elminin inkişafına da öz töhfələrini vermişlər.

Müstəqillik əldə edildikdən sonra, xüsusilə də son illərdə Azərbaycan Respublikasında təhsilin inkişafı istiqamətində mühüm nailiyyətlər əldə edilib. Bu gün ölkəmizdə təhsilin müasir tələblərə cavab verən normativ-hüquqi bazası yaradılıb. Aparılan dövlət siyasətinə uyğun olaraq təhsilə ayrılan dövlət xərcləri yalnız son beş ildə 1,3 dəfə artırılıb. Bu sahədə aparılan infrastruktur dəyişikliklər Azərbaycan təhsilinin yeni inkişaf dövrünə qədəm qoyduğundan xəbər verir. Belə ki, Prezident İlham Əliyev tərəfindən respublikada təhsil sisteminin bütün pilləleri üzrə Dövlət proqramları uğurla həyata keçirilməkdədir. Təhsilimizdə ən uğurlu nəticələrdən biri kimi istər paytaxtda, istərsə də regionlarda hərtərəfli şəraitə malik məktəb tikintisinin geniş vüsət almasını göstərə bilərik. Həmçinin ikinövbəli məktəblərin və ikinci növbədə təhsil alan şagirdlərin faizinin aşağı düşməsi də təqdirəlayiq haldır. Məktəblilərin dərsliklərlə pulsuz təminatı üçün də yeni dərs ili ərəfəsində lazımi tədbirlər həyata keçirilib. Prezident İlham Əliyevin müvafiq sərəncamı ilə "Ən yaxşı ümumtəhsil məktəbi" və "Ən yaxşı müəllim" mükafatlarının təqdimatı da məktəb və müəllimin statusunun yüksəldilməsinə xidmət edir.

Göründüyü kimi, təhsil sahəsində baş verən köklü irəliləyişlər gələcəyimizin qurucuları olan şagirdlərin savadlı olması, zəngin elmi biliklərə malik olması üçün bir stimuldur. Qeyd etməliyəm ki, əgər bir dövlətin təhsil bazasında laxlama, geriləmə müşahidə olunursa, onda həmin dövlətin perspektivlərindən danışmağa dəyməz. Çünki istənilən dövlətin nurlu sabahı yetişməkdə olan savadlı, ziyalı gənclərin əlindədir.

İnanırıq ki, "İşıqlı, parlaq gələcək naminə" şüarı altında bütün şagirdlərimiz elmli, savadlı olmağa çalışacaq, bu yolda əllərindən gələni əsirgəməyəcək.

15 sentyabr-Bilik Gününüz mübarək əziz məktəblilər və müəllimlər!

**gizir N.Rzayeva**

# BAŞ İDARƏDƏ GÖRÜŞ





**Avqustun 25-də** Daxili İşlər Nazirinin müavini - Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov Pakistan İslam Respublikasının Milli Mühəndislik və Elmi Komissiyasının sədri Muhammad İrfan Burneyin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib. Görüşdə Pakistanın Qlobal Sənaye və Müdafiə Həlli Təşkilatının (GİDS) baş direktoru, istefada olan Aviasiya Vitse Marşalı Zubair İqbal Malik, Birgə Qərargahın nümayəndəsi, istefada olan general-mayor Maqsud Abbasi, GİDS-in Mərkəzi Asiya regionu üzrə layihələr departamentinin direktoru Mehtab Nazir Ahmad, Pakistan İslam Respublikasının ölkəmizdəki Hərbi Attaşesi polkovnik Səid İmran Əli və Daxili Qoşunların Baş İdarəsinin yüksək rütbəli şəxsləri iştirak ediblər.

Qonaqları səmimi salamlayan general-leytenant Ş.Məmmədov Pakistan İslam Respublikası ilə ölkəmiz arasında mövcud dostluq və yaxın əməkdaşlıq münasibətlərindən söz açıb. O bildirib ki, hər iki ölkənin müvafiq qurumları arasında səmərəli əlaqələrin qurulması xoş münasibətlərin daha da inkişaf etməsinə zəmin yaradır.

Səmimi və qonaqpərvər qəbul üçün təşəkkürünü bildirən Muhammad İrfan Burney respublikamıza etdiyi səfərdən məmnun qaldığını deyib. O, rəhbərlik etdiyi qurumun fəaliyyətindən söz açaraq, gələcəkdə Daxili Qoşunlarla daha geniş əlaqələrin qurulması üçün lazımi dəstək göstərməyə hazır olduğunu bəyan edib.

* * * *

**Avqustun 26-da** Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov Daxili Qoşunlar Komandanının xidməti ezamiyyətini başa vurmuş müşaviri polkovnik İzzet Cüralı və onu əvəz edəcək polkovnik Aziz Altıntepeni qəbul edib.

İki qurum arasındakı qarşılıqlı xoş münasibətlərin müzakirə olunduğu görüşdə general-leytenant Ş.Məmmədov Türkiyə Jandarm Baş Komandanlığının Daxili Qoşunlarda xidməti ezamiyyətdə olan hər bir hərbi qulluqçusunun təlim-tədris prosesinin inkişafı və təkmilləşdirilməsi istiqamətində mühüm işlər gördüyünü diqqətə çatdırıb.

Polkovnik İ.Cüral öz növbəsində Daxili Qoşunlarda xidməti ezamiyyətdə olmaqdan məmnunluğunu ifadə edib. O, həmçinin bu müddət ərzində göstərilən diqqət və qayğıya görə Daxili Qoşunların Komandanlığına dərin minnətdarlığını bildirib.

Görüşdə qeyd olunub ki, iki qardaş ölkənin müvafiq qurumları arasında səmimi dostluq və hərbi əməkdaşlıq bundan sonra da davam edəcək.

Cənab Komandan qoşunlarda xidmətə yeni başlayan polkovnik A.Altıntepeye gələcək fəaliyyətində uğurlar arzulayıb.

Görüşün sonunda Daxili Qoşunların Komandanı polkovnik İ.Cüralı "Xidmətdə fərqləndiyinə görə" döş nişanı ilə mükafatlandırıb.

Xatırladaq ki, Azərbaycan Respublikası və Türkiyə Cümhuriyyəti arasında 1997-ci ildə imzalanmış müvafiq Protokola əsasən, türkiyəli zabitlər Daxili Qoşunlarda təlim-tədris prosesinin təkmilləşdirilməsi məqsədilə mütəmadi olaraq müəyyən müddətə müşavir və müəllim kimi Daxili Qoşunlara ezam olunurlar.

**leytenant X.Tağıyeva**

# İXTİSASLI HƏRBÇİ KADRLARIN HAZIRLIĞI YÜKSƏK SƏVİYYƏDƏ HƏYATA KEÇİRİLİR

***Ümummilli Lider Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi bütün dövrlərdə ordu quruculuğu prioritet istiqamət kimi müəyyənləşdirilmiş, peşəkar hərbçi kadrların hazırlanması diqqət mərkəzində saxlanılmışdır. Hələ ötən əsrin 70-ci illərindən başlayaraq Azərbaycanda hərbi təhsilin inkişafına təkan verən islahatlar aparılmış, yüzlərlə azərbaycanlı gənc Sovet İttifaqının müxtəlif ali hərbi məktəblərinə təhsil almağa göndərilmişdir. Məhz bu dövrdə yaradılan möhkəm təməl müstəqillik qazandıqdan sonra ordu quruculuğunun formalaşdırılmasında mühüm rol oynamışdır.***

Bu gün də Silahlı Qüvvələrin inkişafı üçün ölkə Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyev tərəfindən hərbi təhsil sahəsində görülən işlər peşəkar zabit kadrlarının hazırlanmasına, şəxsi heyətin yüksək döyüş hazırlığının təmin edilməsinə, Vətənə, xalqa, dövlət və dövlətçiliyə sədaqət hissinin aşılanmasına, tapşırıqların yüksək məsuliyyətlə yerinə yetirilməsinə yönəlib. Hazırda respublikamızda hərbi kadrların hazırlanması xüsusi təyinatlı təhsil müəssisələrində həyata keçirilir.

Belə hərbi təhsil müəssisələrindən biri də Daxili Qoşunların Ali Hərbi Məktəbidir. Peşəkar zabit kadrlarının hazırlanması üçün Ali Hərbi Məktəbdə hər cür şərait yaradılıb. Burada müvafiq rəhbəredici sənədlərin tələblərinə əsasən həyata keçirilən tədris fəaliyyəti yüksək səviyyəli biliyə, dünyagörüşünə malik zabitlərin formalaşmasına zəmin yaradır. Təlim-tədrisin keyfiyyətli şəkildə təşkili, kursantların bilik səviyyəsinin artırılması həm məktəb rəisi, həm də Daxili Qoşunlar Komandanlığı tərəfindən daima diqqət mərkəzində saxlanılır. Göstərilən diqqət və qayğının nəticəsidir ki, tədris ili ərzində kursantlarımızın imtahan nəticələri yüksək olub.

Tədris ilində fərqlənən kursantlarımızdan bir neçəsi ilə sizləri də tanış etmək istərdik.

**Kursant Emil Abdullayev** 1996-cı il martın 21-də Qax rayonunun Dəymədağlı kəndində anadan olub. 2011-ci ildə orta



məktəbi əla qiymətlərlə bitirən Emil uşaqlıq arzusunu reallaşdırmaq üçün sənədlərini Cəmşid Naxçıvanski adına hərbi litseyə təqdim edib və 525 balla litseyə daxil olub. Burada hərbçi peşəsinin sirlərinə yiyələnərək 2014-cü ildə hərbi litseyi 3-cü yerdə bitirib. Elə həmin ildə Daxili Qoşunların Ali Hərbi Məktəbinə (AHM) keçirilən imtahanlarda iştirak edib və yenə də yüksək nəticələr göstərməyə müvəffəq olub.

Hazırda AHM-in zabit hazırlayan tədris taqımında xidmətini davam etdirən E.Abdullayev savadı və bacarığı ilə yanaşı, nizam-intizamı ilə də kursant yoldaşlarına nümunədir. 2014-2015-ci tədris ilini əla qiymətlərlə başa vuran kursantımız tədris ili ərzində keçirilən fənlərin yüksək səviyyədə tədris edilməsindən və yaradılmış hərtərəfli şəraitdən razılığını bildirir: "Taktiki hazırlıq, fiziki hazırlıq və ingilis dili fənləri mənim üçün daha maraqlıdır. Ali Hərbi Məktəbdə bizim hərb sənətinin sirlərinə yiyələnməyimiz və əsl zabit kimi formalaşmağımız üçün hərtərəfli şərait yaradılıb. Həm müəllimlər, həm də komandir heyəti bizə daim diqqət və qayğı ilə yanaşırlar".

Qeyd edək ki, Emil tədris ili ərzində vəzifə borclarının icrasına layiqincə münasibət bəslədiyinə, tədrisdə və hərbi intizamın möhkəmləndirilməsində fərqləndiyinə və nailiyyətlər əldə etdiyinə görə 1-ci yerə layiq görülüb və Ali Hərbi Məktəb rəisinin əmri ilə mükafatlandırılıb. Onun ən böyük arzusu hər sahədə öz birinciliyini qoruyub saxlamaq, gələcəyin layiqli zabitlərindən olmaq və müəllimlərinin, komandir heyətinin ona olan etimadını daim doğrultmaqdır.

**Kursant İbrahim Əliyev** 1997-ci il avqustun 10-da Ağstafanın Köçəsgər kəndində anadan olub. 2014-cü ildə humanitar təmayüllü litseyi bitirən İbrahim 419 balla Ali Hərbi Məktəbə daxil olub. Tədris ili ərzində əzmkarlıq nümayiş etdirən kursant İ.Əliyev keçirilən yekun imtahanların nəticəsinə görə 2-ci yerə layiq görülüb. İbrahim gələcəkdə təhsilini başa vurduqdan sonra polis orqanlarında öz xidmətini davam etdirmək arzusundadır. O, bunun üçün üzərində işləyəcəyini, Daxili Qoşunların adını, şərəfini hər zaman uca tutacağını deyir.

**Kursant Xəyal Cəbrayılov** da yoldaşlarının sözlərinə qüvvət olaraq vurğuladı ki, məktəbdə tədris olunan hərbi fənlər kursantların peşəkar zabit kimi formalaşmasında mühüm rol oynayır. Xəyal özü isə xüsusi taktiki hazırlıq, Daxili Qoşunların taktikası, "Vətənin müdafiəsinə hazıram və atıcılıq" fənlərinə üstünlük verir. O, xüsusilə Xızı Təlim Mərkəzində keçirilən təlimlərdə iştirak etməyi daha çox xoşlayır. Əlavə etdi ki, keçirilən təlimlər atəş hazırlığının, eləcə də psixoloji mətinliyinin artırılmasında vacib rol oynayır. Xəyal eyni zamanda fiziki hazırlıq məşğələlərində də fəallığı ilə fərqlənir.

*Kursantlarla söhbət zamanı hərbi xidmətin məsuliyyəti, özünəməxsusluğu, şərəfi və s. üstün cəhətləri barəsində də fikir mübadiləsi apardıq. Onların səsləndirdiyi fikirlər belə bir əminlik yaratdı ki, bu cür savadlı, nizam-intizamlı, vətənpərvər kursantlar hərbi sirlərə yiyələndikcə Vətənə, torpağa bağlılıqları artır, xalq, dövlət qarşısında daşıdıqları məsuliyyəti daha dərindən dərk edirlər.*

**leytenant X.Tağıyeva**

**Hörmətli redaksiya!**

Daxili Qoşunlar Komandanlığının köməkliyi ilə səhhətimlə əlaqədar müayinə və müalicə olunmaq məqsədilə Türkiyə Respublikası Silahlı Qüvvələrinin Gülhanə Hərbi Tibb Akademiyasına göndərildim.

Burada çalışan həkimlər müalicə aldığım müddət ərzində mənə xüsusi diqqət və qayğı ilə yanaşdılar. Tibb Akademiyasının personalı tərəfindən sağlamlığımla bağlı bütün profilaktik tədbirlər həyata keçirildi. Müalicəmin uğurla başa çatması üçün onlar əllərindən gələni əsirgəmirdilər.

Əlbəttə ki, səhhətimin normallaşmasında, müsbətə doğru irəliləyişlərin əldə edilməsində tibb personalı ilə yanaşı, Daxili Qoşunlar Komandanlığının əməyini xüsusi olaraq qeyd etmək istəyirəm. Ehtiyatda olmağıma baxmayaraq, səhhətimlə daima maraqlandığına, məni diqqət və qayğıdan kənarda qoymadığına görə şəxsən Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədova dərin minnətdarlığımı bildirmək istərdim.

# MİNNƏTDARLIQ

Komandanlıq tərəfindən şəxsi heyətə, xüsusilə mənim kimi ehtiyatda olan hərbi qulluqçulara göstərilən yüksək qayğı onu deməyə əsas verir ki, Daxili Qoşunlar sözün əsl mənasında böyük bir ailədir. Bu ailənin bütün üzvlərinə - silahdaşlarıma cansağlığı arzu edir və xidməti fəaliyyətlərində uğurlar diləyirəm.

**Akif Mustafayev,**
**ehtiyatda olan polkovnik-leytenant**

*ELXAN XƏZƏR – 60*

# TƏBRİKNAMƏ

**Hörmətli Elxan müəllim!**
**Əziz veteran dostumuz!**

Altmış illik yubileyiniz münasibətilə Sizi təbrik edir, ildən-ilə yaşa dolub müdrikləşsəniz də, həmişə qəlbən cavan qalmağınızı arzu edirik.

Siz söhbət və çıxışlarınızda həyatınızın ən mənalı dövrünü Daxili Qoşunlarda xidmət illərinə aid edirsiniz. Məhz bu hərbi birləşmənin tərkibində Ağdərə bölgəsində, ölkəmizin ərazi bütövlüyü uğrunda döyüşlərə atılaraq mərdlik, rəşadət və şücaət göstərmisiniz.

Sonralar Azərbaycanın Milli Qəhrəmanı Ənvər Arazovun rəhbərlik etdiyi alayda komandirin döyüş hazırlığı üzrə müavini vəzifəsini tutduğunuza görə bir çox əməliyyatların hazırlanmasında və keçirilməsində fəal iştirak etmiş, erməni işğalçılarına Azərbaycan əsgərinin gücünü və iradəsini göstərmisiniz. Vaxtilə sizinlə birlikdə vuruşan, indi isə təşkilatımızda veteran kimi qeydiyyatda olan zabit və gizirlər cəbhədəki fəaliyyətinizlə bağlı xoş xatirələr danışır, sizi qorxmaz və cəsarətli komandir kimi səciyyələndirirlər.

Daxili Qoşunlara olan rəğbətiniz qələmə alınmış bədii əsərlərinizdə də duyulmaqdadır. Bir çox şeir və hekayələrinizin, xatirə tipli yazılarınızın, "Örnək", "Dəyanət", "Yaralı ürəklər" kimi poemalarınızın ədəbi qəhrəmanı burada xidmət etmiş hərbi qulluqçulardır.



Hər dəfə gənc əsgərlərlə görüşərkən siz onlara Daxili Qoşunların şanlı xidmət və döyüş ənənələrinin davamçısı olmağı tövsiyə edirsiniz.

Siz Veteranlar Şurasının nümunəvi, intizamlı və işgüzar üzvü kimi də hörmət qazanmısınız. Heç bir dəvətimizi cavabsız qoymur, təşkil etdiyimiz tədbirlərə həvəslə qatılırsınız. Özü də bu işin icrası zamanı zaman və məkan məhdudiyyəti qoymursunuz, istənilən vaxt, istənilən hərbi hissədə görüşə getməyə hazır olduğunuzu bildirirsiniz. İndiyədək Bakıda, Gəncədə, Sumqayıtda, Hacıqabulda, Lənkəranda, Qubada, Naxçıvanda və başqa yerlərdə təşkil olunmuş çoxsaylı tədbirlərdə iştirakınız dediklərimizə sübutdur.

Daxili Qoşunlar Komandanlığı və şəxsi heyəti də sizə hörmət və ehtiramla yanaşır. Daxili Qoşunların Baş İdarəsində keçirilən rəsmi tədbirlərə tez-tez dəvət olunmağınız, burada 55 illik yubileyinizin təntənəli surətdə keçirilməsi, bütün hərbi hissələrin kitabxanalarında əsərlərinizdən ibarət bölmələrin yaradılması bu maraq və diqqətin təzahürüdür. İnanırıq ki, şəxsi heyətin vətənpərvərlik ruhunda tərbiyəsinə, mənəvi-psixoloji hazırlığına müsbət təsir edən belə xoş əlaqələr bundan sonra da davam edəcək.

Bir daha nəzərinizə çatdırmaq istəyirik ki, ədəbi və ictimai fəaliyyətiniz təkcə sizin deyil, şuramızın da nüfuzunun yüksəlməsinə xidmət edir. Buna görə də sizin uğurlarınıza öz nailiyyətimiz kimi baxırıq.

**Əziz veteran dostumuz, 60 yaşın mübarək!**

Növbəti yubileylərinizi təbrik etmək arzusu ilə...

**Murad Mürsəlov,**
**Daxili Qoşunların**
**Veteranlar Şurasının sədri,**
**ehtiyatda olan**
**polkovnik-leytenant**

# HƏRBİ HİSSƏLƏRİN YARANMA GÜNLƏRİ TƏNTƏNƏLİ ŞƏKİLDƏ QEYD OLUNUB

***Avqust ayının 27-də 25033, 28-də isə 16073 saylı hərbi hissənin yaranmasının 23-cü ildönümü münasibətilə təntənəli şəkildə mərasim keçirilib. Tədbirdə Daxili Qoşunların Baş İdarəsinin yüksək rütbəli hərbi qulluqçuları da iştirak ediblər.***

İldönümü münasibətilə Daxili İşlər Nazirinin müavini-Daxili Qoşunların Komandanı general-leytenant Şahin Məmmədov tərəfindən hər iki hərbi hissənin şəxsi heyətinə təbrik məktubu ünvanlanıb.

Təbrikdə yarandıqları gündən etibarən Vətənə sədaqətlə xidmət edən hərbi hissələrin təqdirəlayiq inkişaf yolu keçdiyi, döyüş təlimi və xidmət səviyyəsinin artırılması, şəxsi heyətin sosial-məişət şəraitinin yaxşılaşdırılmasında nəzərəçarpacaq irəliləyişlər əldə etdiyi vurğulanıb.

Qeyd olunub ki, regionda ictimai sabitliyin qarantı olan hər iki hərbi hissə ötən müddət ərzində hərbi qulluqçuların peşə hazırlığının artırılması, maddi-texniki tədris bazasının möhkəmləndirilməsində xeyli nailiyyətlər qazanıb.

Təbrikdə eyni zamanda hərbi hissənin şəxsi heyətinin Ümummilli Liderimiz, ordumuzun memarı möhtərəm Heydər Əliyevin ideyalarına sadiq qalaraq, Respublika Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin Daxili Qoşunlara göstərdiyi etimadı doğruldacaqlarına, Daxili Qoşunların qəhrəmanlıq ənənələrini bundan sonra da davam etdirəcəklərinə, müqəddəs Döyüş Bayrağını göz bəbəyi kimi qoruyacaqlarına, ləyaqətli xidmət nümunəsi göstərəcəklərinə əminlik ifadə olunub.

Tədbirdə çıxışlar zamanı xüsusi olaraq vurğulanıb ki, Dövlət başçısının, DİN rəhbərliyinin, eləcə də Daxili Qoşunlar Komandanlığının şəxsi heyətə göstərdiyi diqqət və qayğının nəticəsidir ki, bu gün ciddi nizam-intizamın hökm sürdüyü hərbi hissələrimiz regionda asayişin sadiq keşikçisi olaraq, qarşıya qoyulan hər bir xidməti-döyüş tapşırığını tam və keyfiyyətlə, yüksək səviyyədə yerinə yetirməyə hazırdır.

**leytenant X.Tağıyeva**

# BAKI OLİMPİYA STADİONU İLİN ƏN YAXŞI İDMAN QURĞUSU ELAN OLUNUB

İnşaat sahəsində böyük beynəlxalq nüfuza malik "Engineering News Record" jurnalı dünya miqyasında ilin ən yaxşı layihələrinin siyahısını açıqlayıb. Bu ilin martında "Bakı-2015" ilk Avropa Oyunları ərəfəsində istifadəyə verilmiş Bakı Olimpiya Stadionu idman qurğuları kateqoriyasında ilin ən yaxşı layihəsi elan olunub.



Qeyd edək ki, dünya miqyasında tanınmış ekspertlərdən ibarət münsiflər heyəti müsabiqəyə təqdim olunmuş layihələri təhlükəsizlik, innovasiya, ictimai əhəmiyyət, dizayn və inşaat üstünlükləri baxımından qiymətləndirir, eyni zamanda layihəni həyata keçirən şirkətlərin də çətinliklərin öhdəsindən necə gəldiyi nəzərə alınır. Builki müsabiqədə hava limanları, körpü və tunellər, inzibati binalar, mədəniyyət, təhsil və turizm obyektləri, sənaye əhəmiyyətli tikililər də yer alıb.

Xatırladaq ki, SOCAR-ın baş podratçılığı ilə inşa edilən stadionda "Bakı-2015" ilk Avropa Oyunlarının açılış və bağlanış mərasimləri, həmçinin yüngül atletika yarışları keçirilib.



# "VƏTƏNƏ, DÖVLƏTƏ SƏDAQƏT, HƏRBİ ANDA SADİQLİK...

## *17074 saylı hərbi hissənin şəxsi heyəti xidməti vəzifə borclarının icrasına son dərəcə məsuliyyətlə yanaşır*



**Daxili Qoşunların bölgələrdəki hərbi hissələrinə növbəti xidməti ezamiyyət Zaqatala rayonunda yerləşən 17074 saylı hərbi hissəyə idi. Artıq beşinci dəfə burada olmağıma baxmayaraq, hər dəfə yeniliklərin şahidi olmuşam. Gündən-günə döyüş hazırlığını artıran və təkmilləşdirən 17074 saylı hərbi hissədə dəyişməyən bir hall mövcuddur - hökm sürən dəmir nizam-intizam. Sözsüz ki, döyüş hazırlığının və nizam-intizamın qorunub saxlanılmasında hissə komandanlığının tələbkarlığı, eləcə də vəzifə borclarının icrasına son dərəcə məsuliyyətlə yanaşan zabit, gizirlərin xidməti təqdirəlayiqdir.**



Ezamiyyətin ilk günündə hərbi hissənin mühafizəsini təşkil edən qarovul məntəqəsinə baş çəkdim.

Komendant bölüyünün komandiri baş leytenant Zamiq Məmmədov təhkim olunmuş obyektlərin etibarlı mühafizəsinin başlıca vəzifələrdən olduğunu söylədi. Bildirdi ki, qarovul xidmətinə cəlb olunan hərbi qulluqçuların seçiminə, o cümlədən onların mənəvi-psixoloji durumlarına xüsusi diqqət yetirilir. Şəxsi heyətə yerinə yetirdikləri döyüş tapşırığının əhəmiyyəti izah edilir. Hər bir hərbi qulluqçudan Qarnizon və Qarovul Xidmətləri Nizamnaməsinə ciddi riayət etmələri tələb olunur.

Bölük komandiri sadalanan xüsusiyyətlərlə yanaşı, xidmətə cəlb olunan şəxsi heyətin atəş və fiziki hazırlığının da diqqət mərkəzində saxlanıldığını vurğuladı. Bu məqsədlə mütəmadi olaraq praktiki təlimlər keçirilir. Məşğələlərdə şəxsi heyətin fəallıq göstərdiyini deyən baş leytenant Z.Məmmədov bu işdə bölük komandirinin tərbiyə işləri üzrə müavini leytenant Elnur Əliyevin əməyini xüsusi olaraq qeyd etdi.

Qarovul rəisi leytenant Cavanşir Allahverdiyevlə xidmətin təşkili, aparılması və məsuliyyəti barədə söhbəti davam etdirdim. Qeyd etdi ki, xidmətdə olduğu zaman postlarda saatdarın ayıq-sayıq xidmət aparmasına, döyüş hesabatının vaxtlı-vaxtında çatdırılmasına, tərbiyə işinin təşkilinə, səliqə-sahmana, şəxsi heyətin sağlamlığına xüsusilə diqqət yetirilir, eləcə də silahın doldurulub-boşaldılması zamanı təhlükəsizlik qaydalarına ciddi riayət olunur. Bütün bunlarla yanaşı, o, əsgərlərin asudə vaxtlarının səmərəli təşkili üçün müxtəlif növ ədəbiyyatların mütaliə olunduğunu, stolüstü oyunların oynanıldığını bildirdi. Qarovul rəisinin köməkçiləri çavuş Elsevər Hüseynov, kiçik çavuş Elçin Məlikov, əsgərlər Gənci Cəbrayılov, Elxan Rahiboğlu, Əlövsət Muxtarov və Məhzər İbrahimov müvafiq tapşırıqların icrasında qarovul rəisinə yaxından kömək edirlər.

Regiondakı ictimai asayişin və ictimai təhlükəsizliyin qorunub saxlanılmasında hərbi hissənin xüsusi təyinatlı dəstəsinin rolu əvəzolunmazdır. Dəstə komandiri mayor Zəfər Yusibov ərazinin mövcud relyefini nəzərə alaraq, daha çox praktiki təlimlərin keçirildiyini dedi. Şəxsi heyətlə atəş və fiziki hazırlıqla yanaşı, xüsusi taktiki hazırlıq, hərbi topoqrafiya, dağçılıq, ləpirçilik, habelə həmlə-desant hazırlığı məşğələlərinin keçirilməsinə üstünlük verilir.



Dəstə komandiri həmlə-desant məşğələsindən söz açaraq, təlimin məqsəd və əhəmiyyətindən də danışdı. Alpinist qülləsində həmlə-desant üsulu ilə tullanma təlimlərinin keçirilməsində məqsəd əməliyyat rayonuna helikopter vasitəsilə qısa bir müddətdə çatmaq və müxtəlif enmə üsullarından istifadə edərək şəxsi heyətin təyin olunmuş əraziyə endirilməsi, eləcə də verilmiş döyüş tapşırığının müvəffəqiyyətlə yerinə yetirilməsidir.

Yeri gəlmişkən qeyd edim ki, həmlə-desant hazırlığı məşğələsinə tibbi müayinədən keçmiş, təhlükəsizlik tədbirlərini, helikopterdən enmək üçün xüsusi alət və ləvazimatlardan istifadə edilməsi üzrə bilikləri tam mənimsəmiş hərbi qulluqçular cəlb olunur. Dəstə komandiri verilmiş tapşırıqları qeyd-şərtsiz, lazımi səviyyədə yerinə yetirən hərbi qulluqçulardan dəstə komandirinin müavini-qərargah rəisi kapitan Elçin Hadıyevin, yarımqrup komandirləri gizir Yolçu Xəlilovun, kiçik gizir Şamil Əhmədovun, atıcı-radiotelefonçu çavuş Elmar İlyasovun və qumbaraatan köməkçisi əsgər Cavid Əsədovun adlarını sadaladı.

Xüsusi vasitələrin tətbiqi bölməsində isə şəxsi heyətin hazırlığı barədə bölmə komandirinin müavini-qərargah rəisi baş leytenant Novruz Tahirov məlumat verdi. Qeyd etdi ki, hərbi hissə komandanlığı tərəfindən qarşıya qoyulmuş əsas tələb ondan ibarətdir ki, şəxsi heyətlə keçirilən nəzəri və praktiki məşğələlər, o cümlədən xüsusi-taktiki təlimlər keyfiyyətlə keçirilməli, şəxsi heyətin hərtərəfli hazırlığına ciddi fikir verilməlidir. Şəxsi heyətin bölmə, qrup və yarımqrup tərkibində praktiki təlimlərini izlədikcə hiss olunurdu ki, bu tələblərə maksimum səviyyədə əməl olunur. Nəticə etibarı ilə keçirilən məşğələlər hərbi qulluqçuların peşə vərdişlərinin artırılmasına, həmçinin alınmış tapşırığın müvəffəqiyyətlə yerinə yetirilməsinə təkan verir.

Bölmə komandirinin tərbiyə işləri üzrə müavini baş leytenant Məmməd Məmmədov hərbi qulluqçuların mənəvi-psixoloji durumu, hərbi kollektivin möhkəmləndirilməsi istiqamətində görülən effektiv tədbirlərdən bəhs etdi. Hərbi qulluqçularda Vətənə sədaqət, dövlətə və dövlətçiliyə, Hərbi anda sadiqlik, hərbi xidmətin çətinliklərinə dözümlülük kimi keyfiyyətlərin artırılmasının vacibliyini vurğulayan komandir müavini bu baxımdan ictimai-siyasi hazırlıq məşğələlərinin əhəmiyyətini önə çəkdi.

Şəxsi heyətin bilik və bacarıqlarının artırılmasında yarımqrup komandirləri baş çavuş Şaiq Rəsulzadə, baş çavuş Yaşar Əlipənahov, atıcılar çavuş Eldar Hüseynov, çavuş Göyçə Qurbanov və baş əsgər Fərid Xamməmmədov fəallıq göstərirlər.

***Üçgünlük ezamiyyət müddətində müşahidələrimə əsaslanaraq deyə bilərəm ki, 17074 saylı hərbi hissənin güclü iradəyə malik hərbi qulluqçuları döyüş hazırlıqlarını tələb olunan səviyyədə saxlamaqla regionda daxili sabitliyin keşiyində mətin dayanıblar.***

**baş leytenant T.Əlizadə**

*METODİKİ VƏSAİT*

# DÖYÜŞ MÜHAFİZƏSİNDƏ, DÖYÜŞ NÖVBƏSİNDƏ, QAROVULDA VƏ DAXİLİ NARYADDA XİDMƏTİN NÜMUNƏVİ APARILMASI ORDUNUN YÜKSƏK DÖYÜŞ HAZIRLIĞININ RƏHNİDİR

***İctimai-siyasi hazırlıq qrupunun rəhbəri bu məşğələyə hazırlaşarkən Daxili Xidmət Nizamnaməsinin, Qarnizon və Qarovul Xidmətləri Nizamnaməsinin, Qoşun Xidməti haqqında əmr və təlimatların tələblərini diqqətlə öyrənməli, məşğələyə hazırlaşarkən öz bölməsinin tapşırıqlarını, xüsusiyyətlərini, xidmət şəraitini nəzərə almalıdır.***

### I. Döyüş mühafizəsində, döyüş növbəsində, qarovulda və daxili naryadda xidmətin xüsusiyyətləri

Hərbi hissələrin və bölmələrin daimi yerləşmə yerlərində, düşərgələrdə və döyüş şəraitində yüksək döyüş hazırlıqlı olmalarını, qarşıya qoyulmuş döyüş tapşırıqlarını vaxtında və keyfiyyətlə yerinə yetirmələrini, həmçinin mühüm hərbi obyektlərin etibarlı mühafizəsini, bölmələrdə daxili qayda-qanunun saxlanmasını, bölmələrin silah və sursatının, əmlakının qorunmasını təmin etmək üçün döyüş və ümumqoşun nizamnamələrinin tələbləri əsasında müvafiq xidmətlər təşkil olunur. Bu xidmətlər öz xüsusiyyətlərinə görə fərqlənirlər:

- daxili xidmət hərbi hissələrdə, bölmələrdə, parklarda, tədris müəssisələrində, düşərgələrdə, eləcə də qoşunların yerdəyişməsi zamanı günün nizam qaydalarına ciddi riayət olunması, daxili qayda-qanunun saxlanması, silah və sursatın, digər əmlakın qorunması üçün Silahlı Qüvvələrin Daxili Xidmət Nizamnaməsinə uyğun təşkil edilir;
- qarovul xidməti Döyüş Bayrağının, silahların, döyüş texnikasının, sursatların, partlayıcı maddələrin və digər əmlakın saxlanıldığı anbarların və s. hərbi obyektlərin etibarlı mühafizəsini və müdafiəsini təmin edir;
- döyüş mühafizəsi və döyüş növbətçiliyi hərbi hissə və bölmə qarşısında qoyulmuş döyüş tapşırıqlarını müvəffəqiyyətlə yerinə yetirmək, döyüş hazırlığının yüksək səviyyədə saxlanılmasını təmin etmək üçün təşkil edilir.

Hazırda Azərbaycan Respublikası ərazisinin bir hissəsinin Ermənistan silahlı qüvvələri tərəfindən işğal olunduğu bir dövrdə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin bir sıra hərbi hissələri düşmənlə bilavasitə təmas vəziyyətində döyüş mühafizəsi və döyüş növbətçiliyi xidmətlərini aparır, torpaqlarımızın düşməndən etibarlı müdafiəsi kimi şərəfli, eyni zamanda çox çətin bir vəzifəni yerinə yetirir. Bu isə həmin hərbi hissələrin şəxsi heyətində yüksək döyüş hazırlığı, möhkəm nizam-intizam, öz postunda ayıq-sayıq xidmət aparmaq, qorxmazlıq, düşmənə nifrət, öz silahına, komandirlərinə inam kimi döyüşçü keyfiyyətlərinin tərbiyə olunmasını tələb edir. Döyüş mühafizəsi və döyüş növbətçiliyinə təyin olunan bölmənin, eləcə də hərbi qulluqçuların əsas vəzifələrindən biri təhkim olunmuş döyüş və texnikanın, silahların, avadanlıqların həmişə saz, döyüş tapşırıqlarının yerinə yetirilməsinə hazır vəziyyətdə saxlanılmasıdır. Döyüş mühafizəsinə təyin olunan hərbi qulluqçu bütün ekstremal şəraitlərdə özünü vəzifə borcunu yerinə yetirməyə hazırlamalıdır.

Bu vəzifələri nümunəvi yerinə yetirmək üçün görülən işlərin əsas məqsədi aşağıdakılardır:

- bölmə və hissələrdə döyüş hazırlığının yüksək səviyyədə saxlanılmasını, qoşun xidmətinin əhəmiyyətini hərbi qulluqçulara ətraflı izah etmək;
- hərbi qulluqçularda yüksək şüurluluq, əqidə möhkəmliyi, siyasi sayıqlıq, qarovul və qarnizon xidmətində, döyüş mühafizəsi və döyüş növbətçiliyində öz vəzifə borclarını dəqiq və qüsursuz yerinə yetirmək üçün şəxsi cavabdehlik hisslərini tərbiyə etmək;
- hərbi qulluqçuları qoşun xidmətinə dair sənədləri, təlimatları, Müdafiə nazirinin əmrlərini, hərbi nizamnamələri, Azərbaycan Respublikasının Qanunlarını dərindən öyrənməyə yönəltmək;
- hərbi nizamnamələrin tələblərinin, qarovul və qarnizon xidməti qaydalarının, döyüş mühafizəsi və döyüş növbətçiliyinin aparılma qaydalarının pozulmasına görə hərbi qulluqçuların məsuliyyətini müəyyənləşdirən hüquq normalarını izah etmək;
- daxili xidmət, qarovul və qarnizon xidmətlərinin yerinə yetirilməsində qabaqcıl təcrübənin öyrənilməsini, ümumiləşdirilməsini və yayılmasını təşkil etmək, qoşunlarda mövcud ənənələri, xidmətdə hünər və qəhrəmanlıq nümunələrini təbliğ etmək;
- qarovula, daxili naryada, döyüş növbətçiliyinə və döyüş mühafizəsinə hazırlıq dövründə və xidmət edərkən hərbçilərlə daha təsirli təlimat və tərbiyəvi xarakterli işlər aparmaq, qabaqcıl təcrübəni komandirlər (rəislər) və şəxsi heyət arasında yaymaq;
- naryadda olan hərbi qulluqçuların maddi-məişət və mədəni tələbatlarının öyrənilib təmin olunmasına qayğı göstərmək.

### II. Bölmənin şəxsi heyətinin qoşun xidmətini aparmaq üçün hərtərəfli hazırlığa səfərbərliyi

Daxili xidmətə, qarovul və qarnizon xidmətinə hazırlıq prosesində hərbi nizamnamələrin öyrənilməsi, hərbi qulluqçulara nizamnamə tələbləri ilə yaşamaq və xidmət etmək hissi aşılamaq başlıca yer tutur. Bu məqsədlə, döyüş və humanitar hazırlıq məşğələlərindən əlavə məqsədyönlü təbliğat işləri aparılır. Bölmələrdə, hissələrdə və gəmilərdə mühazirələr oxunur, konfranslar keçirilir, "Nizamnamə qaydalarının yerinə yetirilməsində qoşun xidmətinin əhəmiyyəti", "Hərbi nizamnamələr hərbçi həyatının və fəaliyyətinin hüquqi və mənəvi normalarının toplusudur" və başqa mövzularda söhbətlər aparılır.

Komandirlər və tərbiyəvi işlər üzrə zabitlər gənc əsgər və matroslara nizamnamələrin əsas müddəalarını izah etdikdə onların diqqətini gündəlik naryadda vəzifə borclarını bilmələrinə, gün növbətçisinə və patrula verilən konkret tapşırıqlara cəlb etməlidirlər.

Əsgərlərdə öz vəzifə borclarını qüsursuz yerinə yetirmək üçün lazım olan mənəvi və döyüş keyfiyyətlərinin formalaşdırılmasında humanitar hazırlıq dərslərinin böyük rolu var. Ona görə də humanitar hazırlıq dərslərində qrup rəhbərləri hərbi qulluqçulara döyüş mühafizəsində, döyüş növbəsində, qarovul və daxili naryadda xidmətin aparılmasında möhkəm intizamın və yüksək sayıqlığın əhəmiyyətini daha dərindən anlamaqda kömək edir.

Qoşun xidmətinə dair məsələlər məruzələrdə, söhbətlərdə, divar qəzetlərində və döyüş vərəqələrində işıqlandırılır. Hərbi hissələrdə hər ayın axırında qoşun xidmətinin təhlili aparılır, yekunlaşdırılır və hərbi hissə komandirinin müvafiq əmri ilə elan edilir. Həmin əmrdə qoşun xidmətinin yoxlanılması zamanı aşkar edilmiş nöqsanlar göstərilir, daxili naryad, qarovul, döyüş növbətçiliyi xidmətlərinin aparılmasını yaxşılaşdırmaq üçün tədbirlər müəyyən edilir, eləcə də fərqlənənlərə həvəsləndirmələr tətbiq edilir.

### III. Döyüş mühafizəsində, döyüş növbəsində, qarovul və daxili naryadda xidmətin aparılması məsuliyyətli və şərəfli işdir

Daxili xidmətə təyin olunmuş hərbi qulluqçularla iş aparılarkən qışlada, döyüş maşınları parkında, yeməkxanada, hərbi şəhərciyin ərazisində nizamnamə qaydalarına əməl edilməsində onların cavabdehliyi xüsusi olaraq qeyd olunur, lazımi təlim məşğələsi keçirilir və bu məşğələdə yerli şəraitə uyğun yüksək sayıqlıq və döyüş hazırlığını təmin edən amillər öyrənilir. İndiki dövrdə qarovul xidmətinin, döyüş mühafizəsinin və döyüş növbətçiliyinin xüsusi əhəmiyyət kəsb etməsi məşğələdə dinləyicilərə çatdırılmalıdır. Bu isə ondan irəli gəlir ki, düşmən kəşfiyyatçıları ordumuzun döyüş sayıqlığı və qoşunların yerləşdiyi məntəqələr haqqında məlumat toplamaq üçün hər cür vasitələrə əl atır.

Qoşunların fəaliyyətində daxili xidmət naryadlarının, qarnizon və qarovul xidmətlərinin xüsusi əhəmiyyəti vardır. Bu xidmətlər hissə və bölmələrin döyüş hazırlığını müəyyən edən müasir tələblər əsasında hərbi nizamnamələrə uyğun təşkil olunur.

Daxili naryadın vəzifəli şəxslərinin hazırlığı onların nizamnamə vəzifələrini təmin edir. Ona görə də naryada təyin olunan şəxsi heyət öz vəzifə borclarını, müxtəlif şəraitlərdə, məsələn, "həyəcan", "toplanış" siqnalları alarkən, silah-sursat verərkən, səhər baxışı və axşam yoxlamaları apararkən, məşğələ saatlarında hərəkət qaydalarının öyrənilməsinə məsuliyyətlə yanaşmalıdır. Naryada təyin olunan hər bir hərbi qulluqçu nizamnamə üzrə vəzifələrini əsaslı təkrar etməlidir.

Qarovul (vaxta) xidmətinə təyin olunan hər bir əsgər, çavuş bu xidmətin döyüş tapşırığı olduğunu, qarovulda qoyulmuş tapşırıqların yüksək məsuliyyətini şüurlu dərk etməli, nizamnamə qaydalarının hər cür pozulmasına qarşı ciddi mübarizə aparmalıdır.

Qarovulda əsas diqqət Döyüş Bayrağının, saxlancların, parkların mühafizəsinə, eləcə də gecə vaxtı və pis hava şəraitində xidmət aparan şəxsi heyətin təlimatlandırılmasına yönəldilir. Onlar öz vəzifələrini yerinə yetirərkən yüksək sayıqlıq nümayiş etdirməlidirlər.

Qarnizon xidmətinin şəxsi heyəti ilə aparılan işlərin forması və məzmunu qarovul xidmətində olduğu kimidir. Lakin burada hərbi qulluqçulara təlimat keçərkən onların hərbi hissədən kənara çıxması, yerli əhali ilə təmasda olması qeyd edilir və ona görə də onlardan daim sayıqlıq, hərbi sirləri qoruyub saxlamaq, təmkinlilik, nümunəvi xarici görünüş tələb olunur. Ümumiyyətlə, aparılan işlərin əsas məqsədi hərbi qulluqçuları şəraitdən asılı olmayaraq hərbçi şərəfinə layiq xidmət etməyə, hərbi andın, nizamnamələrin və komandirlərin (rəislərin) tələblərini dəqiq və qüsursuz yerinə yetirməyə ruhlandırmaqdır.